# MÜASİR AZƏRBAYCAN MUSİQİSİNDƏ İSLAM MOTİVLƏRİ

***Müasir klassik Azərbaycan musiqisində dinin təcəssümünün ən gözəl nümunələri bəstəkarların ciddi, klassik musiqi janrlarına islami ünsürlərin əlavə etməsi ilə izah olunur. Bəstəkarların yaradıcılıqlarındakı bu yenilik, ilk növbədə, onların müasir cəmiyyət hadisələrinə olan münasibətlərini dini hisslərlə çatdırmaqdan irəli gəlir. Müasir Azərbaycan bəstəkarlarının dinə müraciəti əsasən iki planda özünü müşahidə etdirir: birincisi, klassik musiqi əsərlərinə ənənəvi-dini məqamların əlavə edilməsi, ikincisi, dini mərasimlərin dirçəldilməsi ilə əlaqədar dini oxumaların, mahnıların bəstələnməsi.***

İslama qayıdış müasir Azərbaycan musiqisində sırf islami dini mahiyyət kəsb edən əsərlərin - dini oxumaların yaranmasında əhəmiyyətli bir hadisədir. Bunların yaranmasına başlıca səbəb dini mərasim və adət-ənənələrin dirçəldilməsi və onların kütləvi asudə xarakter almasıdır. Xüsusilə, Mövlud günləri, Ramazanların təntənə ilə keçirilməsi müasir Azərbaycan cəmiyyətinin müstəqilliyinin uğurlarından olduğu üçün mədəniyyətin ən kütləvi sahəsi olan musiqidə öz təcəssümünü tapdı.

Müasir Azərbaycan musiqisində dinə, islami ənənələrə qayıdışın digər bir nümunəsi kimi ruhani nəğmələrin ifaçıları olan dərvişlərdən də danışmaq yerinə düşərdi. Dini musiqinin ayrıca bir sahəsi hesab edilən dərviş musiqisi artıq Bakının bir çox regionlarında - Nardaran, Maştağa və Buzovnada keçirilən toy mərasimlərində təzahür tapmışdır. Bu toyları idarə edənlərdən Kürdəxanılı Əzizulla Babayev, Hacı Məhəmməd, Hacı Yaşar (Nardaran), Türkanlı Ağa Nəcəf Əsgərov və b. adlarını çəkmək olar. Onlar məclislərdə sürud, növhə, qəsidə, mərsiyə, mədhiyyə, münacat, nət, Qurandan ayə və surələr ifa etməklə musiqi mədəniyyətimizin, zəngin ənənələrə malik olan dini-ruhani musiqimizin dirçəldilməsi və müasir nəslə çatdırılmasında əhəmiyyətli iş görmüş olurlar.

Dərviş musiqisinin təbliği ilə bağlı televiziyada, xüsusilə "Spaqe", "ANS", "Lider" kimi özəl telekanallarda xüsusi konsertlərin ("Görüş yeri", "Bazar günü" verilişi) təşkili təqdirəlayiqdir. Bu konsertlərdə qəzəl və qəsidələrdə islam mövzuları özünün musiqi təcəssümünü tapır.

Ümumiyyətlə, musiqi mədəniyyətimizin bu cəhətinə diqqətin artırılması təkcə bəstəkarların deyil, həmçinin, digər mədəni-tədris strukturlarının fəaliyyətini də qeyd etmək lazımdır. Ümumrespublika, beynəlxalq, habelə ayrı-ayrı ali məktəb səviyyələrində təşkil olunan elmi-nəzəri, mədəni tədbirlərdə müasir musiqi və dinin vəhdəti, musiqidə islami təzahürlər mövzusu aktuallığı baxımından əhəmiyyət kəsb edir.

Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin qədim musiqi alətlərindən ibarət olan ansamblının 2002-ci ildə Fransanın Strasburq şəhərində keçirilən "Roman yolu və səsi" festivalında iştirakı zamanı İslam dünyasının müqəddəs siması İmam Əliyə həsr olunmuş "Heydərnamə" (Ə.Marağay) IX əsrdə inşa edilmiş qədim kilsədə ifa olunaraq alqışlarla dörd dəfə səhnəyə qaytarılmışdır. Bu fakt dünya dillərinin qovuşuğu, Qərb və Şərqin vəhdətinin timsalı olmaqla yanaşı, həm də müasir Azərbaycan musiqisində islam dininin təzahürünün ifadəsi deməkdir.

Bakıdakı Amerika Universitetinin nəzdində fəaliyyət göstərən "Azərbaycanşünaslıq lektoriyası"nda təşkil olunan "İslam dini və islam mədəniyyətində musiqinin yeri" (məruzəçi prof. R.Hüseynov) tədbiri, Bakıdakı "Tusi" İran Mədəniyyət Mərkəzinin həmin mövzuda təşkil etdiyi söhbət və müsabiqə, festivallar müasir Azərbaycan musiqisində dini səciyyənin, amilin çevikliyinə təsir edən səbəblərdəndir.

YUNESKO xəttilə təşkil olunan beynəlxalq səciyyəli tədbirlərdə Azərbaycan musiqiçiləri - bəstəkar, ifaçı və müğənnilərin müvəffəqiyyətinin kökündə duran əsas amillərdən biri də məhz dini səciyyədir. Respublikanın xalq artisti Alim Qasımovun YUNESKO-nun beynəlxalq musiqi mükafatına layiq görülməsini klassik muğam sənətinin təntənəsi olmaqla yanaşı, müğənninin bu ifaya dini-ruhani nəfəsin, tərzin orijinal surətdə "əlavə"sinin nəticəsi kimi qiymətləndirmək olar. Musiqi aləmi və ümumiyyətlə, ictimaiyyətdə bəzən narazılıqla qarşılanan Alim ifa tərzinin "ənənəvilik"dən uzaq olması iddiasına müğənni özü ifa zamanı keçirtdiyi ruhani hisslərlə Allaha yaxın olduğunu duyduğunu bildirərək haqq qazandırır. İfa zamanı "dərvişsayağı" tərz (əl-qol hərəkətləri, dəf-qavalı tez-tez hərləyərək hərəkətə gətirməsi, ekstaz hal), muğamın sonuna əzandan bir hissəsini "Allahu-əkbər" sözlərinin əlavəsi Alim ifaçılıq sənətinin dini mahiyyətini təsdiqləyən amillərdir. Bu yerdə "İslam və mədəniyyət" monoqrafiyasının müəllifi R.Aslanovanın fikri ilə razılaşmaq lazımdır. O qeyd edir: "Muğam melodiyasının intonasiya baxışlarının zənginliyi və mürəkkəbliyi hər bir ifaçının (xanəndə və sazəndənin) fərdi fantaziya və fəaliyyətindən asılıdır. Muğam mədəniyyəti zəngin fəlsəfi və ruhi zamində yüksəlmişdir". 1. (R.Aslanova-İslam və mədəniyyət, s. 261) Bu ruhi zəminin islamla bilavasitə bağlı olduğu ehtimalları da mədəniyyətşünaslıq tərəfindən tez-tez səslənən arqumentlərdəndir.

***Beləliklə, müasir Azərbaycan mədəniyyətinə zənginlik gətirən milli musiqidə dinin mövqeyi xalqın ictimai həyatında faciələrlə nəticələnən hadisələrin bəstəkarlar tərəfindən matəm-mərasim musiqi janrlarında (rekviyem, oxşama, ağı, mərsiyə) təzahürünə geniş formada yer verməsi, professional səviyyədə dini oxumaların bəstələnməsi, dərviş mədəniyyətinə qayıdış, fərdi və ifa tərzində dini ruhaniliyə meyllilikdə müşahidə edilir.***

**Sədaqət Əliyeva**